AZCD
Group

# SƏTƏM SİYASƏTİ

"AZCD Group" QSC-nin (bundan sonra "Cəmiyyət" adlanacaq) başlıca məqsədi öz işində mövcud yerli və beynəlxalq tələblər əsasında tikinti, istehsal və istismar fəaliyyəti zamanı insanların sağlamlığına və əmlakına ziyan vurmadan, eyni zamanda ətraf mühitin mühafizəsini təmin etməklə, bu sahədə təhlükəsiz iş mühiti yaratmaqdır.

Bununla əlaqədar olaraq Cəmiyyətin rəhbərliyi tərəfindən bu istiqamətdə aşağıdakı hədəflər müəyyənləşdirilmişdir:

- ISO 45001:2018 standartının tələblərinə uyğun olaraq Əməyin Mühafizəsi və Təhlükəsizliyi Sisteminin işini qurmaq və inkişaf etdirmək;
- Cəmiyyət əməyin mühafizəsi və texniki təhlükəsizliyə aid olan Azərbaycan Respublikası qanunlarının, qaydalarının və digər qanunverici normativ hüquqi aktların tələblərini rəhbər tutur;
- Siyasətin həyata keçirilməsində prioritet məsələ işçilərimizin, podratçı cəmiyyətin işçilərinin və əhalinin sağlamlığına ziyan vura biləcək hər hansı təhlükənin qarşısının alınması üçün bütün mümkün tədbirlərdən istifadə etmək;
- Cəmiyyət işçilərinin təhlükəsiz avadanlıqlar və lazımi fərdi mühafizə vasitələri (FMV) ilə təchiz edilməsi, xəsarət zamanı dərhal ilkin yardım və tibbi xidmətin göstərilməsi üçün lazımi şərait yaratmaqdır;
- Cəmiyyət baş vermiş bütün hadisələri tədqiq və təhlil edib, oxşarının baş verməməsi üçün qabaqlayıcı tədbirlərin görülməsi və bu barədə işçi heyətin təlimatlandırılmasını və məlumatlandırılmasını həyata keçirir;
- Cəmiyyət işçilərin Əməyin Mühafizəsi və Təhlükəsizliyi sahəsi üzrə biliklərin, vərdişlərin yüksəldilməsi istiqamətində olan müvafiq işləri həyata keçirir;
- Bundan başqa Cəmiyyət iş yerlərində və istehsalatda ən müasir, təhlükəsiz texnologiya və texnikanın tətbiqinə nail olmağa çalışır;
- Əməyin Mühafizəsi və Təhlükəsizliyi Siyasətinə yenidən baxmaq və lazım gəldikdə ona dəyişikliklər etmək rəhbərlik üçün prioritet məsələlərdən biridir.
- ISO 14001:2015 standartının tələblərinə uyğun olaraq Ətraf Mühitin Mühafizəsi İdarəetmə Sistemini işini qurmaq və inkişaf etdirmək;
- Təbii ehtiyatların mühafizəsi ilə bağlı ölkənin tərəfdar çıxdığı beynəlxalq razılaşma sənədləri (konvensiyalar, sazişlər, protokollar və s.), o cümlədən beynəlxalq və yerli qanunvericilik tələblərinə riayət etmək;
- Fəaliyyət göstərdiyimiz sahələrdə ictimaiyyət və Ətraf mühit üçün yarana biləcək ekoloji riskləri maksimum səviyyədə azaltmaq;
- Ətraf mühitə edilə biləcək təsirləri nəzərə alaraq fəaliyyət zamanı bütün işçiləri müvafiq və dolğun məlumatlarla təlimatlandırmaq;
- Layihələndirmə tikinti, istehsal və istismar prosesi zamanı ekoloji aspektlərin ətraf mühitə təsirinin davamlı monitorinqini həyata keçirmək;
- Cəmiyyət ilə əlaqədə olan podratçılara, firmalara,müəssisələrə və s. partnyorlara ISO 14001:2015 standartın (Ətraf mühitin idarəedilməsi sistemi) tələblərinin əlçatan olmasını təmin etmək.

"AZCD Group" QSC bütün prinsiplərə əməl etməklə iş zamanı insanların təhlükəsizliyinə, sağlamlığına, əmlakına və ətraf mühitin təhlükəsizliyinə zərər vura biləcək hər hansı təhlükələrin qarşısının alınması və ya minimuma endirilməsi üçün mümkün olan bütün tədbirlərdən istifadə etməklə bu Siyasətin həyata keçirilməsinə nail olmağa çalışır.

**Direktor Müavini:**

**Toğrul Sadıxlı**

**Oktyabr 2024**

| AZCD-HSE-001 | Tarix: 02.08.2021 | Təftiş: 003 |
| --- | --- | --- |